# MƏRKƏZİ KLİNİKA

BÜLLETEN-1 | NOYABR 2014


*"Müasir səhiyyə elmi əsaslarla dünyada əldə edilmiş təcrübə əsasında və bir də səhiyyə sahəsində elmi-texniki tərəqqinin, bu istiqamətdə dünyada yaranmış imkanlar əsasında qurulur."*
**Heydər Əliyev**

*"Azərbaycanda keyfiyyətli, səviyyəli tibbi xidmətin göstərilməsi üçün bütün imkanlar var!"*
**İlham Əliyev**




"Mərkəzi Klinika" Bakı Xəstəxanası
Ünvan: Parlament pr. 76, Az1006

"Mərkəzi Klinika" Bakı Ambulatoriyası
Ünvan: Zərifə Əliyeva küç. 5, Az1005

ALO105

Tel: +994 12 492 10 92 | Call center: +994 12 105 | Fax: +994 12 492 41 31 | info@merkeziklinika.az • www.merkeziklinika.az • www.facebook.com/MerkeziKlinika • twitter.com/MerkeziKlinika






# Mərkəzi Klinika: dünən və bu gün...

## Tariximiz

Mərkəzi Klinika yarım əsrlik tarixə malik nüfuzlu bir səhiyyə ocağıdır. Xəstəxananın binası 1963-cü ildə layihələşdirilmiş və 1965-ci ilin oktyarbrın 1-də tikintisi sona çatdırılaraq istifadəyə verilmişdir. Həmin dövrdə başqa ünvanda fəaliyyət göstərən Azərbaycan SSR Səhiyyə Nazirliyinin IV Baş İdarəsinin 1 saylı Xəstəxanası bu binaya köçürülmüş və 1999-cu ilədək fəaliyyət göstərmişdir. Xəstəxananın ilk baş həkimi görkəmli səhiyyə işçisi və təşkilatçısı Məcid Ələsgər oğlu Hacıyev olmuşdur. 300 çarpayılıq bu xəstəxana xüsusi bir kontingentə, o cümlədən yüksək dövlət və ictimai xadimlərə, vəzifəli şəxslərə tibbi xidmət göstərərək, xalq arasında "Leçkomissiya" adı ilə məşhurlaşmışdır. Respublikamızın ilk müstəqillik illərində bir müddət Səhiyyə Nazirliyinin Reabilitasiya şöbəsinin 1 saylı xəstəxanası kimi fəaliyyət göstərdikdən sonra, Ümummilli liderimiz Heydər Əliyevin şəxsi təşəbbüsü ilə xəstəxananın binası qısa müddətdə (01.05.1999-01.03.2001-ci illər) beynəlxalq standartlara uyğun rekonstruksiya edilmiş və 24 aprel 2001-ci il tarixindən Türkiyə Cümhuriyyətinin AHSEL Holdinq Şirkətinə 10 il müddətinə idarəetməyə verilmişdir. Həmin dövrdən də Səhiyyə Nazirliyinin tam təsərrüfat hesablı Mərkəzi Klinik Xəstəxanası adı ilə fəaliyyətə başlamışdır. 2007-ci ildə möhtərəm prezidentimiz İlham Əliyev cənabları tərəfindən xəstəxananın fəaliyyətinə ən ali səviyyədə yüksək etimad göstərilmiş və Mərkəzi Klinika adı altında Azərbaycan Respublikasının Prezidentinin Xüsusi Tibb Xidmətinin tabeçiliyinə verilmişdir. 2009-cu il iyunun 25-də Mərkəzi Klinikanın inkişafının məntiqi davamı kimi başqa bir ünvanda Ambulatoriya fəaliyyətə başlamışdır.

Hazırda Mərkəzi Klinika Bakı şəhərində iki ünvanda - Parlament prospekti 76 ünvanında Xəstəxana, Zərifə Əliyeva 5 ünvanında isə, Ambulatoriya kimi xalqımıza tibbi xidmət göstərir.

## Yaranma zərurəti və vacibliyi

Sovet İttifaqının dağılması və müstəqil respublikanın elan edilməsi ilə əlaqədar keçid dövrünün sosial-iqtisadi problemləri bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də çətin vəziyyət yaratmışdı. Səhiyyə müəssisələrinin texnika və texnologiyaları fiziki və mənəvi aşınmaya məruz qalmış, köhnəlmiş, bu səbəbdən də xalqa lazımi səviyyədə tibbi xidmət göstərə bilmirdi. Vətəndaşlarımız ən adi xəstəliklərin diaqnoz və müalicəsi üçün xarici ölkələrə üz tuturdu. Belə hallar vətəndaşlarımıza nara-



hatlıq gətirməklə yanaşı, səhiyyə sistemimizə olan etibarın da azalmasına gətirib çıxarmışdı. Bununla birlikdə onların xarici ölkələrdə ikinci dərəcəli vətəndaşlar kimi qarşılanması, mənəvi cəhətdən alçaldılmaları halları da baş verirdi. Bu hallar respublikamızdan böyük miqdarda valyutanın xarici ölkələrə axımına da şərait yaradırdı. Mövcud yüksək ixtisaslı tibbi kadrlar ya xarici ölkələrə gedir, ölkədə qalanlar isə müasir nəzəri və praktik biliklər əldə edə bilmədiklərindən inkişafdan geri qalırdı. Bu vəziyyəti xəstəxanamızın açılışı zamanı Ümummilli Liderimiz öz nitqində daha dəqiq ifadə etmişdir: “Son illər belə bir halı müşahidə etməyə başladıq ki, Azərbaycanda bir çox xəstəliklərin müalicəsi mümkün deyil, hətta xəstəliklərin deyil, bəzi xəstəliklərə aid müayinənin aparılması da mümkün deyil. Çünki masir səhiyyə elmi əsaslarla, dünyada əldə olunmuş təcrübə əsasında və bir də səhiyyə sahəsində elmi-texniki-tərəqqinin, bu sahədə dünyada yaranmış imkanların əsasında qurulur”.

Belə bir vəziyyət ölkəmizdə yüksək səviyyəli bir səhiyyə müəssisəsinin yaradılmasını günün ən aktual məsələsinə çevirirdi. Lakin o dövrdə respublikanın maliyyə imkanlarının məhdudluğu və yeni müasir tələblərə imkan verən xəstəxananın yaradılmasının isə çox böyük maliyyə vəsait tələb etməsi, bu sahəyə vəsait ayrılmasına böyük cəsarət və uzaqgörənlik tələb edirdi. Məhz Ümummilli Liderimiz hər sahədə olduğu kimi, burada da öz cəsarətini və uzaqgörənliyini göstərərək Mərkəzi Klinik Xəstəxananın yaradılması kimi müdrik qərar verdi və maliyyə vəsaiti ayırdı. Məhz buna görə Mərkəzi Klinik Xəstəxana müstəqil Azərbaycan dövlətinin banisi və memarı, təkcə Azərbaycanın deyil, dünyanın tanınmış siyasi xadimlərindən biri, Ümummilli Liderimiz Heydər Əliyevin səhiyyə siyasətinin xalqımıza bəxş etdiyi töhfəsi hesab edilməlidir.

**Məhz buna görə Mərkəzi Klinik Xəstəxana müstəqil Azərbaycan dövlətinin banisi və memarı, təkcə Azərbaycanın deyil, dünyanın tanınmış siyasi xadimlərindən biri, Ümummilli Liderimiz Heydər Əliyevin səhiyyə siyasətinin xalqımıza bəxş etdiyi töhfəsi hesab edilməlidir.**

## Missiya, məqsəd və vəzifələr

Mərkəzi Klinikanın missiyası Azərbaycan səhiyyəsində yeni, beynəlxalq standartlara uyğun tibbi xidmət sistemini və təfəkkürünü formalaşdırmaq və həyata keçirməkdən ibarətdir. Əsas məqsədimiz tibbin ən son nailiyyətlərindən, texnika və texnologiyalarından istifadə etməklə xalqımıza müasir standartlar səviyyəsində tibbi xidmət göstərməkdən ibarətdir. Daha doğrusu xəstəxananın açılışı mərasimində Ümummilli Liderimiz Heydər Əliyevin proqram xarakterli nitqində qarşımıza qoyduğu aşağıdakı məqsəd və vəzifələri rəhbər tutaraq fəaliyyət göstərir və onlara nail olmağa uğur qazanmağımızın əsas meyarı kimi baxırıq. Bu vəzifələr aşağıdakılardan ibarətdir:

- ✓ Xalqımıza yüksək keyfiyyətli və beynəlxalq standartlara cavab verən tibbi xidmətlər göstərmək;
- ✓ Azərbaycanvətəndaşlarının xarici ölkələrdə deyil, məhz öz vətənlərində indiyədək həyata keçirilməmiş hər növ tibbi xidmətlər almalarını təmin etmək;
- ✓ Yüksək ixtisaslı və müasir səviyyədə tibbi bilik və bacarığa malik milli tibbi kadrlar hazırlamaq;
- ✓ Respublikamızdan müalicə məqsədilə xarici ölkələrə gedən xəstələrin vətəndə müalicə almalarını təmin etməklə yanaşı, bu məqsədlə xaricə aparılan milli valyuta axımının qarşısını almaq və onun xalqın mənafeyi naminə istifadəsini təmin etmək.

## Fəaliyyət və uğurlarımız

Mərkəzi Klinika fəaliyyət göstərdiyi on dörd ilədək bir müddət ərzində qarşısına qoyduğu vəzifələri ləyaqətlə yerinə yetirmişdir və bu istiqamətdə fəaliyyətimizi bu gün də davam etdiririk. Xəstəxanamız tibbin əsas istiqamətləri üzrə xalqımıza beynəlxalq standartlara uyğun xidmət göstərərək qısa müddətdə nəinki Azərbaycanda, eyni zamanda Qafqazda böyük nüfuza malik bir şəfa ocağına çevrilmişdir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş Mərkəzi Klinika, hazırda onun layiqli davamçısı möhtərəm prezidentimiz İlham Əliyev cənablarının xüsusi qayğısı və diqqətilə əhatə olunmuşdur. Mərkəzi Klinikanın Azərbaycan Respublikasının Prezidentinin Xüsusi Tibb Xidmətinin tabeçiliyinə verilməsi bu qayğı və diqqətin əyani sübutudur. Eyni zamanda dünya şöhrətli alim və həkim, yüksək şəxsi və işgüzar keyfiyyətlərə malik bir şəxsiyyət olan Akademik Cəmil Əliyevin Xidmətə rəhbərlik etməsi



Mərkəzi Klinika Ambulatoriya

qarşımızda daha ciddi və məsuliyyətli vəzifələr qoymaqla yanaşı, Mərkəzi Klinikanın yeni inkişaf mərhələsinə qədəm qoymasına səbəb olmuşdur. Belə ki, qısa müddətdə ən son tibbi texnika və texnologiyalarla təchiz edilmiş Mərkəzi Klinikanın Ambulatoriyasının istifadəyə verilməsi, Mərkəzi Klinika Xəstəxanasında əsaslı yenidənqurma və genişləndirmə işlərinin aparılması, xəstəxanada istifadə müddətini başa vurmuş cihazların ən son nəsil tibbi texnika və texnologiyalar hesabına yeniləri ilə əvəz edilməsi məhz Akademik Cəmil Əliyevin rəhbərliyi altında mümkün olmuşdur. Burada fəaliyyət göstərəcək milli kadrların hazırlanması, mövcud kadrların bilik və bacarıqlarının daha da artırılması məqsədlə Akademik Cəmil Əliyevin şəxsi təşəbbüsü və himayəsi ilə onlarla tibbi kadrlar Avstriya, Türkiyə və dünyanın bir sıra ölkələrinə təkmilləşmə kurslarına göndərilmişdir.

Məhz bu siyasətin nəticəsidir ki, Mərkəzi Klinika beynəlxalq standartlara uyğun, daim yenilənən, tibbin son nailiyyətlərinə əsaslanan texnika, texnologiya və peşəkar personalla tibbi xidmət göstərir. Xəstəxanamızda bütün istiqamətlərdə təkmilləşmə işləri aparılır, xidmətlərimizin keyfiyyəti, növləri və istiqamətləri daim genişləndirilir, yeni layihələr həyata keçirilir. Xalqımıza müasir tibbin ən son nailiyyətlərindən peşəkarcasına istifadə



etməklə tibbi xidmət göstərmək və beləliklə də, onlarda milli səhiyyəyə inamı və etibarı daha da gücləndirmək Mərkəzi Klinikanın əsas FƏALİYYƏT FƏLSƏFƏSİNƏ çevrilmişdir.

Mərkəzi Klinika Xəstəxanasının həyətyanı sahəsi 39455, binasının sahəsi 22200 kvadratmetr, ümumi çarpayı sayı 213-dür, o cümlədən 156 stasionar, 19 reanimasiya, 11 uşaq reanimasiyası, 8 təcili yardım, 10 əməliyyat, 6 əməliyyatdan sonra müşahidə (recovery) çarpayısı, 50-dən çox poliklinika və diaqnostika otağı mövcuddur. Əsasən statisionar xidmətlərin həyata keçirilməsi nəzərdə tutulan bu xəstəxanada ən müasir tibbi cihaz və avadanlıqlarla təchiz olunmuş poliklinika, diaqnostika, laboratoriya şöbələri də fəaliyyət göstərir. Xəstəxanamızda 5 ədəd təcili tibbi yardım avtomobili və mobil uşaq reanimsiya avadanlığı da mövcuddur.

Mərkəzi Klinika Ambulatoriyası isə 3 mərtəbədən ibarət olmaqla ümumi sahəsi 4200 kvadratmetrdir. Burada ən son tibbi cihaz və avadanlıqlarla təchiz olunmuş və müasir tibbi texnologiyalar əsasında fəaliyyət göstərən **Əməliyyatxana, Diaqnostika, Ginekologiya, Pediatriya, Terapiya, Kardiologiya, Travmatologiya, Fizioterapiya** və s. kimi şöbələr fəaliyyət göstərir ki, onların təchizat və yaradılmış imkanlar baxımından regionda analoqu yoxdur.

Mərkəzi Klinikada (Xəstəxana və Ambulatoriyada) ümumilikdə **16** tibbi, **8** inzibati şöbə fəaliyyət göstərir. Xəstəxanada hazırda ümumi **1110** nəfər, o cümlədən **175** həkim, **460** orta və kiçik tibb işçisi, **340** texniki-inzibati işçi, **47** nəfər müqavilə əsasında əməkdaşlıq edən işçilər və **88** həkim-rezident əmək fəaliyyəti ilə məşğuldur. Eyni zamanda, onlarla xarici həkim və tibbi mütəxəssislər dəvət əsasında xəstəxanada xidmət göstərir.

Ölkə rəhbərliyinin xüsusi diqqəti və qayğısı nəticəsində yaradılan bu şərait əsasında bu günədək bir vaxtlar ölkəmizdə həyata keçirilməyən tibbi xidmətləri, cərrahi əməliyyatları, o cümlədən 10 000-dən çox açıq ürək əməliyyatı, 30 000-dən çox angioqrafiya, sümük iliyinin transplantasiyası, süni mayalandırma və sair mürəkkəb əməliyyatlar uğurla icra edilmişdir. Vətəndaşlarımıza ən müasir tibbi cihazlarla (KT, MRT, Angioqrafiya, Mammoqrafiya, Densitometriya, Litotripsiya və s.) son dərəcə dəqiq diaqnozlar qoymağa və laborator analizlər aparmağa imkan verən şərait yaradılmışdır. Təcrübəli həkimlərimiz tərəfindən həyata keçirilən əməliyyatlar və göstərilən tibbi xidmətlər nəticəsində on minlərlə vətəndaşımız öz sağlamlığına qovuşmuş və şəfa tapmışlar. Artıq fəxrlə deyə bilərik ki, nəinki öz vətəndaşlarımız, hətta xarici ölkə vətəndaşları, diplomatik nümayəndəliklərin, nüfuzlu xarici şirkətlərin əməkdaşları da xəstəxanamızda göstərilən tibbi xidmətlərdən istifadə edir, öz sağlamlıqlarını bizə etibar edirlər.

Fəaliyyətimiz nəticəsində maliyyə imkanlarımız ildən-ilə artmış, ümumi dövriyyəmiz 100 milyon manata yaxınlaşmışdır. Bundan başqa, fəaliyyətə başladığı dövrdən indiyədək Mərkəzi Klinikadan dövlət büdcəsinə və fondlara 25 milyon manatdan çox vergi və sosial sığorta haqqı ödənilmiş, yüzlərlə yüksək ixtisaslı kadrlar hazırlanmış, 1000-dən çox vətəndaşımız daimi işlə təmin edilmişdir. Bu gün Xəstəxanamızda yetişdirilmiş yüzlərlə yüksək ixtisaslı mütəxəssislər respublikamızın müxtəlif səhiyyə müəssisələrində də əmək fəaliyyəti göstərərək, yüksək nailiyyətlər əldə edir.

Bir sözlə həm xidmətlərimizin sayı və ümumi dövriyyəmiz, həm də cəmiyyət arasında etibar və nüfuzumuz durmadan artır, xəstəxanamıza bəslənən ümidləri doğrulduruq. Mərkəzi Klinika səhiyyə sahəsində bir milli brendə çevrilərək, bütövlükdə Azərbaycan Səhiyyəsində sürətli inkişafın hərəkətverici qüvvəsinə -lokomotivinə çevrilmişdir.



## Azərbaycan səhiyyəsinin tarixi

# Akademik Mirəsədulla Mirqasımov

Azərbaycan Respublikası Elmlər Akademiyasının ilk prezidenti, tanınmış ictimai xadim, ilk azərbaycanlı alim-cərrah, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, akademik Mirəsədulla Mirələsgər oğlu Mirqasımov 17 noyabr 1883-cü ildə Bakı şəhərində ruhani ailəsində anadan olmuşdur. Mirəsədulla Mirqasımov hələ təhsil aldığı gimnaziyanın yuxarı siniflərində oxuyarkən ictimai fəaliyyətə başlamış, qəzet və jurnallara məqalələr yazmışdır. İctimai xadim 1913-cü ildə Odessa şəhərində yerləşən Novorossiya İmperator Universitetinin (hazırda İ.İ. Meçnikov adına Odessa Milli Universiteti) tibb fakültəsini bitirmişdir. 1916-cı ilədək Odessada həkim, 1916-1929 illərdə Bakıda hərbi lazaretdə, indiki Əzizbəyov adına 1 №-li doğum evində cərrah, Azərbaycan Dövlət Universitetinin tibb Fakültəsində dosent işləmişdir. 1945-1947-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının ilk Prezidenti olmuşdur. Alimin elmi fəaliyyəti əsasən sidik daşı xəstəliklərini etiologiyası, klinikası və müalicəsinin öyrənilməsinə, irinli peritonit-ləri, anesteziologiya, travmotologiya, urologiya və cərrahlığın aktual məsələlərinə həsr olunmuşdur. Onun yüksək ixtisaslı kadrlar hazırlanmasında xüsusi xidmətləri var. Cərrahlıq sahəsində Azərbaycan dilində yazılmış ilk dərsliyin müəllifidir.

Mirəsədulla Mirqasımov Azərbaycanda müasir tibb təhsilinin və elminin banilərindəndir. O, tədqiqatlarını birləşdirərək "Azərbaycanda sidik daşı xəstəliklərinin öyrənilməsinə dair materiallar" mövzusunda doktorluq dissertasiyasını müdafiə edir. Beləliklə, M.Mirqasımov Azərbaycanda uroloji xəstəliklər üzrə doktorluq dissertasiyasını müdafiə edən ilk milli mütəxəssis kimi səhiyyə tariximizdə özünə layiqli və əbədi yer tutur. İstedadlı alim müvəffəqiyyətlə müdafiə etdiyi doktorluq dissertasiyasının motivləri əsasında müasir dövrümüzdə də öz praktiki



əhəmiyyətini, aktuallığını itirməyən monoqrafiya çap etdirib və bununla da ilk azərbaycanlı alim-cərrah adına yiyələnərək tibbi cərrahiyyə elmi məktəbinin əsasını qoyur.

Mirqasımov Mir Əsədulla Mir Ələsgər oğlu 20 iyul 1958-ci ildə Bakı şəhərində vəfat etmişdir.

## Beynəlxalq əlaqələrimiz genişlənir

# Almaniya Kardiologiya Mərkəzi ilə memorandum imzalanıb



Almaniyanın qabaqcıl tibb müəssisələrindən biri olan Almanya Kardiologiya Mərkəzi ilə Mərkəzi Klinika MMC arasında tibb sahəsində əməkdaşlıq münasibətlərinin qurulması, genişləndirilməsi ilə əlaqədar görüş keçirilmişdir.

Görüşdə, Almaniya Kardiologiya Mərkəzinin Baş direktoru Prof. Dr. Roland Hetzerin başçılıq etdiyi nümayəndə heyəti ilə Mərkəzi Klinika MMC-nin Baş direktoru Dr. Toğrul Adıgözəlovun başçılıq etdiyi heyət arasında qarşılıqlı müzakirələr aparılmış və "Kardio-Cərrahiyə və tibbin digər sahələrinin inkişafı" istiqamətində ikitərəfli əməkdaşlıq qurulması barədə fikir mübadiləsi edilmişdir.

Görüşün sonunda tərəflər arasında imzalanan razılaşma memorandumunda tibb sahəsində birgə təlimlərin keçirilməsi, müalicə sahəsində birgə işlərin aparılması, tibbi və qeyri-tibbi kadrların mübadiləsi, eləcə də müxtəlif xəstəliklər haqqında müştərək araşdırmaların aparılması kimi məsələlər yer almışdır.

# Yaponiyanın "International Total Engineering Corporation" şirkəti ilə birgə əməkdaşlığın perspektivləri müzakirə edilib

Mərkəzi Klinikada Yaponiyanın böyük şirkətlərindən biri olan International Total Engineering Corporation (ITEC) ilə Mərkəzi Klinika MMC arasında "Səhiyyə sahəsində" məsləhətçilik xidmətlərinin verilməsi məqsədilə əməkdaşlıq münasibətlərinin qurulması, genişləndirilməsi ilə əlaqədar görüş keçirilmişdir.

Görüşdə, International Total Engineering Corporation (ITEC) Prezidenti Takao Seki-nin başçılıq etdiyi Yapon heyyəti və Mərkəzi Klinika MMC-nin Baş direktoru Dr. Toğrul Adıgözəlovun başçılıq etdiyi heyət ilə qarşılıqlı müzakirələr aparılmış və "Tibbi xidmətlərin təşkilində məsləhətçilik verilməsi, qazanılmış müasir təcrübə metodlarından istifadə edilməsi" istiqamətində ikitərəfli əməkdaşlıq qurulması barədə fikir mübadiləsi edilmişdir.

Görüşün sonunda Mərkəzi Klinika MMC və International Total Engineering Corporation (ITEC) arasında müvafiq razılaşma memorandumu imzalanıb.

Tərəflər qarşılıqlı maraq dairələri daxilindəki elmi problemlərə həll tapmaq mövzusunda bir-birilərinin elm və təcrübələrindən faydalanacaqlar. Tərəflər tibbi, qeyri-tibbi, inzibati, akkreditasiya müddətləri və s. mövzularda əldə olunmuş "know how" bilgisi və təcrübələri ilə məsləhət verəcək, təcrübə, bilgi və konsultasiya mübadiləsi həyata keçirəcək və müşavirlik xidmətləri göstərə biləcəklər.



# Dos. Dr. Kamran Musayev: "Mərkəzi Klinikada çalışmaq insana qürur verir"

*Mərkəzi Klinik Xəstəxananın baş həkimi, Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətinin sədri, Əməkdar həkim Dos. Dr. Kamran Musayevlə müsahibə:*

***- Siz insan orqanizminin ən vacib və ən həssas üzvü olan ürəyin müalicəsi sahəsində çalışırsınız. İnsanlara yaxın olmaq üçünmü bu sahəni seçdiniz?***

- Ürək insan fiziologiyasının mərkəzi orqanıdır. Mənim ürək xəstəliklərini və ya ürək-damar cərrahiyyəsini seçməyimdə səbəb şübhəsiz ki, ürəyin mərkəzi orqan, insan orqanizminin ən vacib üzvü olmasının da böyük təsiri olub. Açığı, mən hələ orta məktəbdə və institutun tibb fakültəsində oxuduğum illərdə ürək və ya beyin cərrahı olmaq barədə içimdə ciddi dilemmalar yaşamışam. Amma tibb fakültəsinin axırıncı kursunda oxuyanda ürək cərrahı olmağa qərar vermişəm.

***- Adətən bəstəkarlar ilk mahnısını, şairlər ilk şeirini, rəssamlar ilk əsərini unutmurlar. Bəs həkimlər necə, ilk xəstələrini xatırlayırlarmı? Həmin insana kömək edə bilmişdinizmi?***

- Artıq ürək-damar cərrahiyyəsi sahəsində Azərbaycanda da rezidentura sistemi başlayıb. Mən tibb təhsilimi və rezidentura təhsilimi Türkiyədə almışam. Rezidenturaya başlayandan sonra əməliyyatlarda mərhələli şəkildə iştirak edirdik. Ən sadə mərhələsindən başlayıb, bir neçə ildən sonra ən mürəkkəb əməliyyatları müstəqil şəkildə icra etməyə başlayırdıq. Mən ilk dəfə etdiyim açıq ürək əməliyyatını Süleyman bəy adlı bir türk vətəndaşının üzərində həyata keçirdim. Mən onu unutmuram. Çox qəribədir ki, bir neçə il bundan əvvəl o məni Facebook vasitəsilə tapdı. Hal-hazırda da bizim sosial şəbəkə vasitəsilə görüşümüz davam edir.

***- Belə demək olarmı, ilk uğurlu əməliyyatınız seçdiyiniz sahədə sizin qarşınızda yaşıl işıq yandırdı?***

- Cərrahiyyə ilə, xüsusən əgər ürək-damar cərrahiyyəsi kimi kompleks bir işlə məşğul olursunuzsa atılan ilk addımlar və qazanılan uğurlar çox vacibdir. Çünki motivasiya olmadan bu qədər fiziki və psixoloji ağır işi icra etmək olmaz. Çünki bunu bir ömür boyu icra edirsən. Ciddi motivasiya olmadan bunu davam etdirmək mümkün deyil. Bizim professional həyatımızda qazandığımız uğurlar bu işə motivasiya olmağımız və ilk gündəki kimi eyni həyəcanla və sevgi ilə davam etdirməyimizi təmin edən ən vacib faktordur.

***- Qəfil ölümləri adətən infarktla bağlayırlar. Həmçinin ÜST-ün göstəriciləri də, dünya həkimlərinin narahatlığı da infarktın cavanlaşması ilə bağlı həyəcan təbili çalır. Səbəb nədir?***

- ÜST-ün statistikasına baxanda da görərsiniz ki, qəfil ölümlərin ən böyük səbəbi ürək-damar tutulmalarıdır. Təəssüf ki, bu xəstələr qəfil ürək ölümü dediyimiz bir diaqnozla itirilir. Biz bunu gündəlik praktikamızda da çox yaşayırıq. Qəfil ürək ölümü riski daşıyan yüzlərlə xəstəni əməliyyat etmişik və onlar bu gün həyatlarına davam edirlər. Bugünkü imkanlarımız əlimizdə olmadığı vaxtlarda bu xəstələr birmənalı şəkildə itirilirdi. Çünki vaxtında diaqnozu qoyulmurdu, vaxtında onun xəstəliyinin qarşısını alacaq müalicəsi aparıla bilmirdi və bu xəstələr itirilirdi. İnfarktın cavanlaşması məsələsinə gəlincə, bəli, bu xəstəlikdə cavanlaşma tendensiyası hiss olunur. Bu, sadəcə respublikamız xas deyil, bütün dünyada xəstəliyin cavanlaşması gedir. Məncə bu, daha çox xarici faktorlarla – ekoloji, stress, qidalanma rejimi və s. əlaqədardır. Çox təəssüf ki, siqaret başda olmaq şərti ilə bəzi zərərli maddələrdən istifadənin artması nəticəsində bu xəstəlik getdikcə daha cavan xəstələrlə qarşılaşır. Açığı, ürək-damar xəstəliyindən ötrü bizim 30-40 yaşında əməliyyat etdiyimiz xəstələrin sayı təəssüf ki, artır.

***- Mətbuatda tez-tez yazılır ki, xəstələrimiz daha çox müalicə üçün xarici ölkələrə üz tuturlar. Azərbaycanda səhiyyə sistemi getdikcə inkişaf etdiyi, ən son avadanlıqlarla təchiz olunduğu və səriştəli mütəxəssislərin artdığı bir vaxtda xaricə getməyə ehtiyac varmı?***

- Mən həm bir azərbaycanlı mütəxəssis, həm də Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətinin sədri kimi bütün məsuliyyətimlə deyirəm ki, bu gün ürək-damar xəstəliklərindən ötrü insanlarımızın hər hansı xarici ölkəyə üz tutmasına ehtiyac yoxdur. Çox şükür ki, bu gün respublikamızda ürək-damar xəstəlikləri ilə bağlı dünyada mövcud olan bütün diaqnoz və müalicə imkanları mövcuddur. Bu, təkcə Mərkəzi Klinik Xəstəxanada deyil, respublikamızın bir çox klinikasında həyata keçirilir. Bəzi insanlarımızın xarici ölkələrə üz tutmasına gəlincə, bu, bir həqiqətdir, ancaq sizin fikrinizlə tam razı deyiləm. Mən 13 ildir Azərbaycanda işləyirəm. 10 və ya 13 il bundan əvvəllə müqayisə etdikdə xarici ölkələrə üz tutan vətəndaşlarımızın sayında ciddi azalma var. Konkret öz sahəmizə baxdıqda görürəm ki, ürək-damar xəstəlikləri ilə əlaqədar 10-15 il bundan əvvəl xəstələrin böyük əksəriyyəti xaricə üz tuturdusa, bu gün həmin xəstələrin böyük əksəriyyəti respublikamızda qalır və başda Mərkəzi Klinik Xəstəxana olmaqla öz klinikalarımızda müalicə olunur. Bu günə qədər sadəcə Mərkəzi Klinikada 10 000-dən artıq ürək və damar əməliyyatları icra etmişik. Bu baxımdan, xaricə üz tutan xəstə saylarımızda ciddi azalma müşahidə olunur. Artıq bizim klinikamızda çox sayda xarici ölkə vətəndaşını əməliyyat edirik. Ürək-damar xəstəliklərindən əməliyyat etdiyimiz xəstələr arasında ABŞ, İngiltərə, Şotlandiya, Avropa ölkələri, eləcə də Rusiya, İran, Türkiyə və s. ölkələrdən olan xəstələrimiz olub. Onlar məhz Mərkəzi Klinik Xəstəxanada əməliyyat olunub və öz ölkələrinə getmək ehtiyacı hiss etməyiblər.



**Biz hamımız bu dünyaya gəlirik, bir dövr yaşayıb köçürük. Hamımızın məqsədi dünyada xoşbəxt yaşamaqdır. Amma sağlamlıq olmadan xoşbəxtlik olmaz.**

***- Son vaxtlar qadınlar arasında da infarkt halına çox rast gəlinir. Kişilərlə müqayisədə bu, azlıq təşkil etsə də, şəxsən öz müşahidələrimə əsasən deyə bilərəm ki, keçən illərə nisbətən qadınlar arasında da bu xəstəlik artıb.***

- Tibbi və elmi cəhətdən bu məsələ sizin müşahidələrinizlə üst-üstə düşür. Həqiqətən də menopauzadan əvvəlki yaş dövrünə baxıb kişilərlə qadınları müqayisə etdikdə, qadınlarda həqiqətən ürək-damar xəstəlikləri və infarkt az rast gəlinir. Ancaq menopauzadan sonrakı dövrdə isə qadınlarla kişilərdə ürək-damar xəstəliklərinin nisbəti bərabərləşir. Ancaq bu o demək deyil ki, menopauzadan əvvəlki dövrdə qadınlarda infarkt və ya ürək-damar xəstəlikləri ola bilməz. Sadəcə, kişilərlə müqayisədə az olur. Bu gün də bu, belədir.

***- Sizcə, yaxşı həkim yaxşı insan deməkdir?***

- Digər peşə və məsləklərlə əlaqədə onu deyə bilmərəm. Ancaq mən inanıram ki, yaxşı insan olmadan, yaxşı həkim olmaq mümkün deyil. Və ya yaxşı həkim olub, yaxşı insan olmamağı təsəvvür edə bilmirəm.

***- Azərbaycanın səhiyyə tarixində bir çox yeniliklərə imza atmısınız, hətta ölkəmizdən kənara da səsiniz çatıb. Kamran Musayev şanslıdırmı, yoxsa bu işin sirri sadəcə öz sənətinizə peşəkar yanaşmanızdan irəli gəlir?***

- Mən özümü şanslı hesab edirəm. Həqiqətən, müstəqil Azərbaycanın səhiyyəsində pioner rolu oynayan Mərkəzi Klinikada çalışmaq və bu tarixi hadisələrin iştirakçısı olmaq insana qürur verir. Şübhəsiz, öz sənətinizə peşəkar yanaşmasanız hər hansı bir uğurdan söhbət gedə bilməz. Professionalizm sənətinizdə uğur qazanmağın və bu uğuru davam etdirmənin ən önəmli açarıdır. Biz də öz işimizdə professionalizmdən güzəştə getmirik. Gənc həmkarlarıma da professionalizmi tövsiyyə edirəm. Hər şeydən əvvəl, onlar bu sənəti seçməyə professional yanaşmalıdır. Seçimlərini etdikdən sonra bilməlidirlər ki, bu işdə geriyə yol yoxdur. Daim irəli getmək üçün isə daim öz üzərində çalışmalıdırlar. Tibb təhsili davamlı təhsildir. Daim axtarışda və daim çalışmada olmayacaq birisi, məncə, həkimlik sənətini seçməməlidir.

***- Deyirlər, hər güclü kişinin arxasında güclü qadın dayanır, sizcə bu doğrudurmu?***

Mən buna səmimi qəlbdən inanıram. Həyat yoldaşım həyatımın bütün aspektlərində, o cümlədən professional karyeramda ən böyük dəstəkçim və həmdəmimdir. O olmasaydı, ürək-damar cərrahiyyəsi kimi fiziki və psixoloji cəhətdən ağır bir sahədə ən xırda uğur qazana bilməzdim.

***- Qeyd etdiniz ki, hazırda ölkəmizdə ürəklə bağlı ən mürəkkəb əməliyyatlar həyata keçirilir. Siz özünüz də indiyə qədər çox insanları müalicə edib həyata qaytarmısınız. Maraqlıdır, sınmış bir ürəyi müalicə etmək olarmı?***

- Biz məsələnin bioloji tərəfinə daha çox baxırıq. Əslində, mən insanın biopsixososial varlıq olduğuna inanıram. İnsanın sadəcə bioloji bir varlıq olduğuna inanmıram. Sınmış ürəyin əlbəttə, bioloji tərəfini təmir edə bilirik, amma psixososial tərəfini biz həkimlərin təkbaşına təmir etməsi çox da asan deyil. Xəstə nəticə etibarilə həkimə müraciət edəndə, həkim ona yalnız «Bunda filan xəstəlik var, mən onu müalicə edəcəyəm» kimi baxmamalıdır. O, insanın bir psixologiyasının olduğunu, onun sosial bir mühitdən gəldiyini qəbul etməlidir. Həkim mütləq xəstə ilə empatiya qurmalı, yəni özünü bir az xəstənin yerinə qoymağı bacarmalıdır. Əgər həkim özünü xəstənin və ya onun ailə üzvünün yerinə qoya bilsə, məncə yaxşı həkimliyə və insanlığa gedən yol burdan başlayır.

***- Akademik Yevgeni Çazov ürək xəstəlikləri haqqında cild-cild dərsliklər yazandan, fundamental tədqiqatlar aparandan sonra belə bir qənaətə gəlib: «Öz həyat planlarınızı qurun və optimist olun. Bu, hər şeyi həll edir». Həyata fəlsəfi baxış doğurdanmı, hər şeyi həll edə bilir?***

- Hər şeyi həll etmir, ancaq çox şeyi həll edir. Çünki insan həyata necə baxırsa, o cür yaşayır. Yaşım və təcrübəm artdıqca, mən buna daha çox inanıram. Həyat bir güzgüdür. Ona necə baxırsınızsa, elə də görəcəksiniz. Buna fəlsəfi yöndən də inanıram. Əgər həyata optimist olaraq baxarsınızsa, hər şey optimist olar. Və ya pessimist olaraq baxarsınızsa, hər şey pessimist olar.

***- Biz insanlar adətən bir-birimizə cansağlığı arzulayırıq. Düşünürük ki, bundan gözəl nemət yoxdur. Bəs «çörəyi xəstədən çıxan" həkimlər necə, onlar da insanlara bunu arzulayırlarmı?***

- Şübhəsiz... Biz məsələyə insan olaraq baxmalıyıq. Biz hamımız bu dünyaya gəlirik, bir dövr yaşayıb köçürük. Hamımızın məqsədi dünyada xoşbəxt yaşamaqdır. Amma sağlamlıq olmadan xoşbəxtlik olmaz. Mən həkim olmağı ona görə sevirəm ki, insanların sağlamlığının qorunmasında iştirak edirəm. Məncə həkimliyin ən mühüm məqamı da budur.

# Müasir dünyanın yeni kabusu-Ebola virusu

“Ebola” virus xəstəliyi Qərbi Afrikada geniş yayılmış kəskin yoluxucu xəstəlikdir. Xəstəlik 1976-cı ildə ilk dəfə Sudan və Konqoda aşkar olunmuşdur. Deməк olar ki, hər il Afrika ölkələrində bu virus xəstəliyi qeydə alınır, lakin heç vaxt epidemiya belə böyük ərazini əhatə etməmiş və bu qədər insan tələfatına səbəb olmamışdır.

Xəstəliyin təbiətdə mənbəyi yarasalardır. Yarasalardan virus meymunlara, bəzi donuz növlərinə və insanlara ötürülür. Məsələn, 2014-ci ilin mart ayından başlayan epidemiyanın səbəbi kimi, 2 yaşlı uşağın yarasa ətini qidada istifadə etməsi və bunun nəticəsində xəstələnməsi sayılır. Heyvanlardan insana yoluxan virus sonra daha sürətli şəkildə insanlar arasında yayılır.

Azərbaycanda bu xəstəliyin təbii ocaqları olmadığı üçün ölkəmizə xəstəlik sadəcə səyahət edən insanlar vasitəsi ilə gətirilə bilər.

**Mərkəzi Klinika rəhbərliyi qoruyucu vasitələrin və dezinfektantların təmin olunmasına ciddi nəzarət edir, Xəstəxanada və Ambulatoriyada bütün işçilər arasında “Ebola” xəstəliyi ilə əlaqəli mühazirələr aparılır. Mərkəzi Klinik Xəstəxana və Ambulatoriyasına “Ebola” virus xəstəliyi ilə əlaqəli təlimat yazılmış və bütün adiyatı olan şöbələrə paylanılmışdır. Mərkəzi Klinikanın personalı hər an bu məsələ ilə bağlı olaraq İnfeksiya Nəzarət Komissiyasına müraciət edə bilər.**




### EBOLA VİRUS XƏSTƏLİYİNİN SİMPTOMLARI

- ✓ Qızdırma
- ✓ Baş ağrısı
- ✓ Əzələ ağrısı
- ✓ Qusma
- ✓ İshal
- ✓ Qansızma və qanaxmalar

### EBOLA VİRUSU HAQQINDA FAKTLAR

- ✓ Ebola virusu su ilə keçməz
- ✓ Ebola virusu hava ilə ötürülməz
- ✓ Ebola virusu qida məhsulları ilə yoluxmaz

### EBOLA VİRUSUNUN YOLUXMA YOLLARI

- ✓ XƏSTƏ İNSANIN QANINA VƏ YA BAŞQA BƏDƏN MAYELƏRİNƏ TOXUNMAQLA
- ✓ EBOLA VİRUSU İLƏ ÇİRKLƏNMİŞ TİBBİ ALƏTLƏRƏ (MƏSƏLƏN, İYNƏLƏR) TOXUNMAQLA
- ✓ EBOLA VİRUSUNA YOLUXMUŞ VƏ YA BU VİRUSU DAŞIYAN HEYVANLARA, ONLARIN QANINA VƏ ƏTİNƏ TOXUNMAQLA



## BİLİRSİNİZMİ?

- ✓ Mərkəzi Klinikanın hər biri 750m³ həcmində olan 2 ehtiyat su anbarı vardır və ehtiyac olduğu təqdirdə 1 həftə ərzində klinikanı su ilə tam şəkildə təmin edə bilər;
- ✓ Mərkəzi Klinikada istifadə etdiyimiz su 3 karbon filtrindən, 3 qum filtrindən, 2 su yumşaltma filtrindən və 2 ultrabənövşəyi lampa filtrindən keçərək istifadəyə verilir;
- ✓ Hal-hazırda Mərkəzi Klinika Xəstəxanasının həyətində 125 palma ağacı, 1200-dən çox şam ağacı və 5000-dən çox cavan ağaclar vardır;
- ✓ 2013-ci il ərzində Mərkəzi Klinika Xəstəxanasına daxil olan avtomobillərin sayı 200 000-dən çoxdur;
- ✓ Döş qəfəsindən çıxarılan insan ürəyi qısa müddət döyünə bilir. Çünki onun özünün xüsusi elektrik sistemi var;
- ✓ İnsanın ürək ritmləri və mimikası qulaq asdığı musiqidən asılı olaraq dəyişir;
- ✓ İnsan sümüyü poladdan möhkəmdir. Belə möhkəmliyə baxmayaraq sümüklərin 31 faizi sudan ibarətdir;
- ✓ Hamiləlik zamanı ananın hər hansı orqanı zədələnsə, döl bu orqanın bərpası üçün kök hüceyrə ötürür;



**Təsisçi:** Mərkəzi Klinika
**Baş redaktor:** Toğrul Adıgözəlov

**Redaksiya heyəti:** Kamran Musayev, Həsən Qəndilov, Nikbin Yusifov
**Məsul katib:** Şəhla Bağırova

Bülleten ayda bir dəfə nəşr olunur.
**Tiraj:** 500

Tel: +994 12 492 10 92 | Call center: +994 12 105 | Fax: +994 12 492 41 31 | info@merkeziklinika.az • www.merkeziklinika.az • www.facebook.com/MerkeziKlinika • twitter.com/MerkeziKlinika